# Sinəmdəki ürək dözür



*İltimas SƏMİMİ,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*
*Prezident mükafatçısı*

## VƏTƏN EŞQİNDƏN

Torpağın qoynunda rahat ol, sən də,
Qoy ruhun nigaran qalmasın, şəhid.
Səni xatırlayar gələn nəsillər,
Qalmadı düşməndə qisasın, şəhid.

Sən də bu torpağın bir ər övladı,
Silaha sarılıb vuruşdun hər an.
Vətən keşiyində bir əsgər kimi,
Səni qorxutmadı nə ölüm, nə qan.

Bu yol dönməzlərin, qeyrət yoludur,
Çəkir ərənləri əbədiyyətə.
Fəqət Ənvər kimi igid oğullar,
And içir ürəkdən ulu niyyətə.

Şəhidim, qisasın qalmadı yerdə,
Niyyəti Qarabağ, arzusu zəfər.
Bizim bu vətənin qəhrəmanları,
Bu haqq savaşında göstərdi hünər.

Neçə Ənvərlərin intiqamını,
Aldı ər oğullar sevindi vətən.
Bitdi otuz illik torpaq həsrəti,
İgidlər güc aldı vətən eşqindən.

Torpağın qoynunda rahat ol, sən də,
Qoy ruhun nigaran qalmasın, şəhid.
Səni xatırlayar gələn nəsillər,
Qalmadı düşməndə qisasın, şəhid.

13.11.2022

## ŞƏHİD

Yeriyir irəli ordu nizamla,
Torpaq özünküdür, güc alır ondan.
Qəlbi zəfər adlı böyük inamla,
Deyir, əmanətdir bu yurd, bu məkan.

Qalibin üzündə zəfər sevinci,
Qaytarıb vətənə oğul borcunu.
Günəş tək nur, saçır alnında qürur,
Nəsillər hörmətlə yad edər onu.

Bu millət Babəki heç unutdumu?
Adını tarixə yazan igidlər.
Xalqın ürəyində ər oğulları,
Yaşadar hər zaman bu şanlı zəfər.

Ölən unudulur, yad eyləyən yox,
Bu ki ölüm deyil, cənnətim şəhid.
Eşqin qəlbimizdə daima varsan,
Hünərim, qürurum, qeyrətim, şəhid.

02.10.2022

## NƏ ƏBƏDİ SEVGİ VAR

O əngin üfüqlərdən ulduz -ulduz enəsən,
Ya yağışa, ya qara, ya küləyə dönəsən.
Ya dəniz tək çağlayıb, ya da köz-köz sönəsən,
Bəzən vaxtsız saralır yarpaq-yarpaq arzular.
Nə əbədi bir istək, nə əbədi sevgi var.

Hər ürəyin öz dərdi, öz nisgili, öz qəmi,
Ola dəryaca səbrin dözəsən qaya kimi.
Taleyi kəm olanın qisməti qış deyilmi?
Kimi əbədi sevinc, kimi sevgi arzular.
Nə əbədi bir istək, nə əbədi sevgi var.

Dincliyi yox insanın, neçə sınaqdan keçir,
Başını duman alır, qaradan, ağdan keçir.
Neçə -neçə nəzərdən, gözdən, maraqdan keçir,
Qəlbində acı həsrət, gözlərində intizar.
Nə əbədi bir istək, nə əbədi sevgi var.

Özünü yorma belə dəyişilməz bu yazı,
Qış kimi yaşayarsan bu baharı, bu yazı.
Sil üzünü, ağlama, göz yaşın yox faydası,
Ömrünün hər bir anı kədər olar, qəm olar.
Nə əbədi bir istək, nə əbədi sevgi var.

11.09.2022.

## BİR GÜN BİZ DƏ...

Ürəklərə ilham verən, nə ümidəm, nə gümanam,
Nə hay-küylə ömür sürən, nə də belə çox səssizəm.
Nə küləyəm, nə yağışam, nə çovğunam, nə boranam,
Nə günəşəm, nə buludam, nə torpağam, nə dənizəm.

Bu da mənim alın yazım baharı qış, payızı qış,
Çəkdiyimi duyan olsa bulud-bulud gözü dolar.
Dərdim nədir, açıb deyir, gözlərimdən süzülən yaş,
Sinəmdəki ürək dözür, daş ovulub torpaq olar.

Torpaq dedim xəyalımdan kimlər belə gəlib keçdi,
Haqqa gedib çatanların hər bir sözü dilimizdə.
Arzulara yetməsək də, gəl, deməyək daha gecdir,
Yaddaşlarda xatirəyə dönəcəyik bir gün biz də.

18.09.2022.

## YENƏ NUR SAÇAR

Dillərdən düşməyən xatirələr də,
Bir gün yaddaşlardan silinib gedər.
Nəsildən-nəsilə qalsa söz qalar,
Şairin dadına nəğmələr yetər.

Hərənin Tanrıdan bir ömür payı,
Hərə öz ömrünü bir cür yaşayır.
Yoxuşlu yollarda yorulmaq bir dərd,
Kimi təntiməkdə, kimi gün sayır.

Bu vaxtsız əcələ dağılmaz cahan,
Bir qarış torpağın yuxusu qaçar.
Sonsuz arzulara bir ömür azdır,
Ən gözəl nəğmələr yenə nur saçar.

28.09.2022.

## SEVƏN ÜRƏYİM

Suvağı tökülmüş köhnə ev kimi,
Qaçmaq istəyirəm gördüklərimdən.
Hicran da bir yandan sıxır qəlbimi,
Bəzən səssizlikdən bezikirəm mən.

Gəlsin qulağıma bir xanım səsi,
Qoy desin, sözlərin vurğunuyam mən.
Coşsun ürəyində eşqin həvəsi,
Qəlbini oxuyum qoy gözlərindən.

İntizar çəkməsin qara gözlərin,
Səadət kəlməsi ən xoş diləyim.
Təki duyan olsun bu gözəlliyi,
Sevgisi tükənməz sevən ürəyim.

01.10.2022.

## SÜZÜLƏN GÖZ YAŞIMDIR

Yaddaşımı üşüdən xatirələr nisgilim,
Dizlərimdə təpər yox, yarpaqtək əsir əlim.
Fikrimi söyləməyə söz tuta bilmir dilim,
Payız yağışı kimi süzülən göz yaşımdır.

İllər ötdü itirdim neçə könül həmdəmi,
Daşımaq ağır imiş bu möhnəti, bu qəmi.
Mənim yaşamaq eşqim sönmüş bir ocaq kimi,
Payız yağışı kimi süzülən göz yaşımdır.

Gözlərimdə intizar, həsrət çəkir ürəyim,
Bu kədəri, bu dərdi axı kimə söyləyim?
Yarpaq-yarpaq saralır son arzum, son diləyim,
Payız yağışı kimi süzülən göz yaşımdır.

02.10.2022.

## İNCİYƏN KÖNÜL

Küsən ürək idi, inciyən könül,
Bəlkə də, tablanıb dözməzdi daş da.
Ayrılıb getməyin dağ çəkdi mənə,
Sərt keçdi payız da, sərt keçdi qış da.

Hicran yaman imiş dondu qar kimi,
Dilimin ucunda sevgi kəlməsi.
Getdin, gözlərimə daraldı cahan,
Bir də eşitmərəm o şirin səsi.

Yuxusuz gözlərim aramaqdadır,
Sanki sənsizliyə kövrəlib yollar.
Gəl, bir də hüsnünə baxım doyunca,
Qəlbim necə sənsiz rahatlıq tapar.

15.10.2022.

## BU EŞQİMİ

Ömür bitdiyi tək, bu yol da bitər,
Nə ömür əbədi, nə yol əbədi.
Yazın istisinə buz ərisə də,
Fəqət görəsən ki, can isinmədi.

Təklik əzabına sızlayan ürək,
Yayın bürküsü də sənə qış kimi.
Kimdir, mənim qədər dərdini duyan,
Daşıdın illərcə sən bu eşqimi.

Tablamaz nə qaya, nə daş, ürəyim,
Məni tək qoymadın dözdün birtəhər.
Sədaqət göstərdin mənə bir ömür,
Sən sussan üzümə açılmaz səhər.

Ümidi hər şeydən üzülənlərin,
Gözünə bu cahan bir zindan olar.
Hələ qabaqdadır xoşbəxtliyimiz,
Tale yolumuza günəş doğular.

Sən coşdun, cağladın bir ümman kimi,
Kiridə bilmədi sınaqlar səni.
Daim haqq söylədin, həqiqət dedin,
Qovdun sən üstümdən buludu, çəni.

Təklik əzabına sızlayan ürək,
Yayın bürküsü də sənə qış kimi.
Kimdir, mənim qədər dərdini duyan,
Daşıdın illərcə sən bu eşqimi.

18.10.2022.

## ULDUZLAR ENƏ

Xəyal min illərə aparır məni,
Saçıma düşən dən xatirələrim.
Axan buludlarla tutur söhbətim,
Kim bilir, bəlkə də, göylərdir yerim.

Mən göylər övladı, yer mənə yaddır.
Milyonlar içində yalqızam yenə.
Bu şair ruhumu duymaq çox çətin,
Gərək ki göylərdən ulduzlar enə.

03.11.2022.

## NƏLƏR İTİRİR

Bu vüsal, bu görüş xoş bir təsəlli,
Çəkmə sınaqlara həsrətlə məni.
Sənə olan eşqim hər kəsə bəlli,
Üz-üzə qoymasan möhnətlə məni.

Qəlbim ilkin gündən hüsnünə heyran,
Sən mənim ömrümə doğan günəşsən.
Ürəyim eşqinlə döyünür hər an,
Gəl, sən qurtar məni qəmdən, kədərdən.

Sənsizlik gözümün yuxusuzluğu,
Gülüşün ömrümə bahar gətirir.
Əbədi ayrılıq ən acı qorxum,
Sevənlər həsrətdən nələr itirir.

08.11.2022.